AZƏRBAYCAN RESPUBLİKASI

BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

# SƏRƏNCAMI

---

№ 75 «17» iyun 2020-ci il

**Binəqədi rayonu Novxanı, Goradil və Fatmai Dəniz çimərliklərində əhalinin 2020-ci ildə yay istirahətinin təşkili haqqında**

Bakı Şəhər İcra Hakimiyyəti başçısının 12.06.2020-cu il tarixli 120 saylı Sərəncamının icrasını təmin etmək məqsədilə, Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamənin 6.8-ci bəndinə əsaslanaraq

q ə r a r a  a l ı r a m:

1. Bakı Şəhər İcra Hakimiyyəti başçısının 12.06.2020-ci il tarixli 120 saylı Sərəncamının icrası ilə əlaqədar Binəqədi rayonu Novxanı, Goradil və Fatmai dəniz çimərliklərində əhalinin 2020-ci ildə istirahətinin təşkili üzrə Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Tədbirlər Planında nəzərdə tutulmuş işlərin icrası məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılova, Aparatın şöbə müdirləri Yəhya Əliyev, İskəndər Cahangir-zadə, Azər Kərimov, Nicat Allahverdiyev və Yunis Hüseynova tapşırılsın ki, nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsini təmin etsinlər;
3. Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılova tapşırılsın.

Elxan Allahverdiyev

**Əsli ilə düzdür.**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** Sabir Əliyev

SƏN... ÜÇÜN

CamScanner ilə tarandı